E-1501

Azərbaycan Respublikası
Standartlaşdırma, Metrologiya və Patent üzrə
Dövlət Komitəsi
Apellyasiya şurasının
Qərarı

Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə
Dövlət Komitəsinin
Apellyasiya şurası

Z.T.Hacıyevin sədrliyi ilə,
üzvlər– N.F.Nəsibova, R.N.Hüseynəliyev

etiraz verən iddiaçı Open-Type Joint Stock Company "ROT FRONT" /ünvan: 2-oy Novokuznetskiy pereulok, d. 13/15, RU-113184 Moscow (RU)/ nümayəndəsi patent müvəkkili M.Y.Qurbanovun iştirakı ilə,

Z.T.Hacıyevin məruzəsilə etiraz üzrə işə baxaraq müəyyən etdi:

08.02.2018-ci il tarixdə iddiaçı Open-Type Joint Stock Company "ROT FRONT" məxsus "МАРИНКА" əmtəə nişanının 30-cu sinifin əmtəələri üzrə 1302877 saylı beynəlxalq qeydiyyata alınmasına dair ekspertizanın 27.11.2017-ci il tarixli rədd qərarına qarşı iddiaçının nümayəndəsi patent müvəkkili M.Y.Qurbanov tərəfindən "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikası Qanununun 15-ci maddəsində nəzərdə tutulmuş əsaslara görə Apellyasiya şurasına etiraz ərizəsi daxil olmuşdur.

Etiraz ərizəsi onunla əsaslandırılmışdır ki, Open-Type Joint Stock Company "ROT FRONT" şirkəti hesab edir ki, onun tərəfindən Azərbaycan ərazisinə şamil edilməklə qüvvədə olması üçün verilmiş "МАРИНКА" əmtəə nişanının 1302877 saylı beynəlxalq qeydiyyatına ilkin rədd qərarı aşağıdakı əsaslarla ləğv edilməlidir.

"Ekspertiza" qeydiyyata rədd qərarında Azərbaycan Respublikasında 1051209 və 1117441 saylı beynəlxalq qeydiyyatla qüvvədə olan aşağıdakı əmtəə nişanları qarşı qoyulmuşdur

| | МАРИНКА | MARLENKA | MARLENKA |
|---|---|---|---|
| B. Qeydiyyat | 1302877 | 1051209 | 1117441 |
| Qeydiyyat tarixi: | 19.02.2016 | 23.08.2010 | 16.04.2012 |

| | | | |
|---|---|---|---|
| Baza qeydiyyatı: | RU, 14.03.1997, 150768 | CZ, 28.06.2004, 264072 | CZ, 08.02.2012, 323156 |
| Bildiriş tarixi | 22.12.2016 | 11.08.2011 | 21.06.2012 |
| Fəaliyyət müddəti: | 19.02.2026 | 23.08.2020 | 16.04.2022 |
| Sahibi: | Open-Type Joint Stock Company "ROT FRONT" | MARLENKA international s.r.o. | |
| Hüquqi ünvan: | 2-oy Novokuznetskiy pereulok, d. 13/15 RU-113184 Moscow (RU) | Valcířská 434, Lískovec, CZ-738 01 Frýdek-Místek (CZ) | |
| Əmtəələr:30 sinif: | Qənnadı məhsulları; şəkərli hazırlanmış qənnadı məhsulları, məhz konfetlər, iris konfetlər, praline, pastilka (şirniyyat), halva, vaflilər. | Piroqlar, tortlar. | Piroqlar, tortlar. |

"Ekspertiza" ilkin rədd qərarı verərkən "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikası Qanunun (sonralar "Qanun") 6-cı maddəsinin (b) bəndinə əsaslanmışdır:

*"Eyni və oxşar əmtəələrə və ya xidmətlərə aid başqa şəxsin adına Azərbaycan Respublikasının tərəfdar çıxdığı sazişlərə uyğun Azərbaycan Respublikasında daha əvvəl mühafizə edilən əmtəə nişanları ilə eyni olan və ya onlara qarışdırılacaq dərəcədə bənzər olan nişanlar əmtəə nişanı kimi qeydə alınmır".*

Open-Type Joint Stock Company "ROT FRONT" şirkətinin 1302877 saylı beynəlxalq qeydiyyatı qarşı qoyulmuş qeydiyyatlardan daha əvvəl ilkinliklə, mənşə ölkəsi Rusiya Federasiyasinda RU, 14.03.1997, 150768 sayllı baza qeydiyyatı əsasında qorunur, lakin heç də bu nişanların qarışdırılacaq dərəcədə oxşar olmadığı üçün qarşı qoyulmamışdır. 1302877 saylı beynəlxalq qeydiyyat üzrə real statusundan göründüyü kimi AM ; AZ; BY;CN; EM; GE; KG; KZ; MD; TJ; TM; UA; US; UZ kimi üzv dövlətlərdə qüvvədə olmaq üçün verilmiş və yalnız US, CN və AM başqa dövlətlərdə artıq qüvvədədir. Göründüyü kimi, həmin dövlətlərdə US-Amerikada istifadə olunmadığı üçün, digər dövlərdə isə yerli qeydiyyatda olan qarışdırılacaq dərəcədə oxşar olan "МАРИНА" və "МАРИНКА" əmtəə nişanları qoyulmuşdur.

"МАРИНКА" işarəsinin olduğuna baxmayaraq, "MARLENKA" və əmtəə nişanlarının qarışdırılacaq dərəcədə oxşar olmadığının müəyyən edilməsi üçün "Əmtəə nişanlarının qeydə alınması və ekspertizası qaydalarının" (sonralar "Qaydalar") 29.6.1, 29.6.2, 29.6.3, 29.6.4 bəndlərinə əsasən səsli (fonetik), qrafik (görünüşlü) və məna ifadəli (semantik) oxşarlığı araşdırsaq bu sözlərin qarışdırılacaq dərəcədə oxşar olmadığı sübuta yetəcəkdir. "МАРИНКА" yeddi hərfdən, üç hecadan "ma-rin-ka" ibarət olmaqla səkkiz hərfdən və üç hecadan "mar-len-ka" ibarət olmaqla "MARLENKA" -sözündən "ma-mar" *və* "rin-len" səsləri ilə əsaslı surətdə fərqlənir və bu işarələrin qarışdırılacaq dərəcədə oxşar olmadığını sübut edir. Kiril hərfləri ilə adi şriftlə yazılmış "МАРИНКА" əmtəə nişanı latın qrafikası ilə böyük hərflərlə yazılmış "MARLENKA" və xüsusi təsviri şriftlə yazılmış "MARLENKA" əmtəə nişanları,fərqli görünüşləri ilə də əsaslı surətdə fərqlənir. "МАРИНКА" – rus dilindən tərcüməsi "yastı dibli qayıq", balıq adı, və ya rus qadın adı "Marina" – yaranmış kiçik yaşlı uşaqlar üçün sevimli səslənməsi olmaqla, "MARLENKA" ixtira edilmiş qadın adı olmaqla mənacada bu sözlərin heç də qarışdırılacaq dərəcədə oxşar olmadığını sübut edir. Bundan başqa "Qaydaların" 29.9.1, 29.9.2. bəndlərinə uyğunluğu araşdırarkən "МАРИНКА" əmtəə nişanı ilə mühafizə ediləcək əmtəələrində xidmətlərin də "MARLENKA"əmtəə nişanları ilə mühafizə edilən əmtəələrdən də fərqli olduğu aydın görünür.

| "МАРИНКА" | "MARLENKA" |
|---|---|
| Qənnadı məhsulları; şəkərli hazırlanmış qənnadı məhsulları, | Piroqlar, tortlar. |

| | |
|---|---|
| məhz konfetlər, iris konfetlər, praline, pastilka (şirniyyat), halva, vaflilər. | |

"ROT FRONT" şirkətinin "МАРИНКА"  " nişanı "MARLENKA" əmtəə nişanından daha əvvəl Rusiyada mühafizə olunur və Azərbaycan Respublikasında intensiv istifadə olunur. Şərh olunanları nəzərə alaraq, Apellyasiya Şurasından, Open-Type Joint Stock Company "ROT FRONT" şirkəti tərəfindən Azərbaycan ərazisinə şamil edilməklə qüvvədə olması üçün verilmiş "МАРИНКА" əmtəə nişanının 1302877 saylı beynəlxalq qeydiyyatına 30-cu sinif əmtəə üzrə ilkin rədd qərarına yenidən baxılmasını və "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında qanunun" 14-cü və 15-ci maddəsinin müddəalarına əsaslanaraq və "Qaydaların" 29.6.1, 29.6.2, 29.6.3, 29.6.4, 29.9.1 və 29.9.2 bəndlərinin tələblərini pozmadığını nəzərə alaraq, 1302877 saylı "МАРИНКА" əmtəə nişanının beynəlxalq qeydiyyatına 30-cu sinif əmtəələri üzrə hüququ bərpa etməklə mühafizə verilməsi ilə əlaqədar qərarın ÜƏMT-ə (WIPO) göndərilməsini Xahiş etmişdir.

Apellyasiya şurası etiraz ərizəsinə baxaraq, etiraz üzrə məruzəni, etiraz edən patent müvəkkili M.Y.Qurbanovun çıxışını dinləyib, hesab edir ki, iddia təmin edilməlidir.

Apellyasiya şurası etiraza baxılma prosesində qeyd etdi ki, nişanların oxşarlığını müəyyən etmək üçün "Əmtəə nişanlarının qeydə alınması barədə iddia sənədinin verilməsi və ekspertizası Qaydaları"nın 29.6.1-ci maddəsi "Sözlərdən ibarət nişanların (işarələrin) oxşarlığını müəyyən etmək üçün onlar müqayisə edilir", 29.6.2-ci "Səs üzrə (fonetik) oxşarlıq", 29.6.3-cü "Qrafiki (görünüşlü) oxşarlıq", 29.6.4-cü "Məna etibarı ilə", 29.9.1 ("Əmtəələrin və ya göstərilən xidmətlərin həmcins olmaları müəyyən edilərkən, bu əmtəələrin və ya göstərilən xidmətlərin eyni sahibkara məxsus olması barədə istehlakçıda yarana biləcək təsəvvürlər nəzərə alınır") və 29.9.2 ("Əmtəələrin və ya göstərilən xidmətlərin həmcins olması müəyyən edilərkən, xüsusən əmtəənin cinsi (növü) və ya göstərilən xidmətin xarakteri, onların təyinatı, əmtəənin hazırlanmış olduğu materialın növü, əmtəənin satışının və ya göstərilən xidmətlərin şərtləri, istehlakçıların dairəsi və digər şərtlər nəzərə alınır") bəndlərində göstərilən əlamətlər nəzərə alınmalıdır.

Apellyasiya şurası işi araşdıraraq müəyyən etdi ki, Open-Type Joint Stock Company "ROT FRONT" şirkəti tərəfindən "МАРИНКА" (1302877) adlı əmtəə nişanı 30-cu sinifin əmtəələri üzrə 19.02.2016-cı il tarixdə beynəlxalq qeydiyyata alınmış və onun qeydiyyatı 22.12.2016-cı il tarixdə Azərbaycan Respublikasının ərazisinə şamil edilmişdir (2016/50 Gaz).

Ekspertiza "МАРИНКА" (1302877) adlı əmtəə nişanının qeydiyyata alınmasına dair rədd qərarını, Azərbaycan Respublikasında daha əvvəlki ilkinliyə malik olan və "MARLENKA international s.r.o. " /ünvan: Mustafa Valcířská 434, Lískovec, CZ-738 01 Frýdek-Místek (CZ)/ adına 23.08.2010-cu il tarixində 16 və 30-cu sinif əmtəələri üzrə beynəlxalq qeydiyyata alınmış "MARLENKA" (1051209) və 16.04.2012-ci il tarixdə 16, 21, 30-cu sinif əmtəələri üzrə beynəlxalq qeydiyyata alınmış "MARLENKA" (1117441) adlı əmtəə nişanına əsaslanaraq vermişdir.

Apellyasiya şurası "МАРИНКА" və "MARLENKA", "MARLENKA" əmtəə nişanlarını müqayisə edərək, qeyd etdi ki, "МАРИНКА" yeddi hərfdən, üç hecadan "ma-rin-ka", "MARLENKA" səkkiz hərfdən və üç hecadan "mar-len-ka" ibarət olmaqla "ma-mar" və "rin-len" səsləri ilə əsaslı surətdə fərqlənirlər. Kiril hərfləri ilə adi şriftlə yazılmış "МАРИНКА" əmtəə nişanı latın qrafikası ilə böyük hərflərlə yazılmış "MARLENKA" və xüsusi təsviri şriftlə yazılmış "MARLENKA" əmtəə nişanları fərqli görünüşləri ilə əsaslı surətdə fərqlənir. "МАРИНКА" – rus dilindən tərcüməsi "yastı dibli qayıq", balıq adı, və ya rus qadın adı "Marina", "MARLENKA" isə ixtira edilmiş qadın adı mənasını verir.

"МАРИНКА" (1302877) əmtəə nişanı 14.03.1997-ci il tarixində mənşə ölkəsi olan Rusiya Federasiyasında qeydiyyata alınmışdır (№ 150768). "MARLENKA" (1051209) əmtəə

nişanı isə 28.06.2004-cü il tarixində (264072), "MARLENKA" (1117441) 22.08.2011-ci il tarixində (488133) mənşə ölkəsi olan Çexiyada qeydiyyata alınmışdır.

"Sənaye mülkiyyətinin mühafizəsi üzrə Paris Konvensiyasının" 6$^{quinquies}$ maddəsində qeyd edilmişdir ki, "Mənşə ölkəsində müəyyən olunmuş qaydada qeydiyyata alınmış hər bir əmtəə nişanı, İttifaqın digər ölkələrində, bu maddədə göstərilmiş şərtlər nəzərə alınmaqla olduğu kimi mühafizə edilir".

"Əmtəə nişanlarının qeydə alınması və ekspertizası qaydalarının" 29.9.1, 29.9.2, bəndlərinə əsasən "МАРИНКА" (1302877) əmtəə nişanının 30-cu sinifə aid olan "Qənnadı məhsulları; şəkərli hazırlanmış qənnadı məhsulları, məhz konfetlər, iris konfetlər, praline, pastilka (şirniyyat), halva, vaflilər" əmtəələri və "MARLENKA" (1051209), "MARLENKA" (1117441) əmtəə nişanlarının 30-cu sinifə aid olan "Piroqlar, tortlar" əmtəələri ilə həmcins deyil.

Əmtəə nişanının təyinatına uyğun olaraq onun əsas məqsədi bir sahibkarın əmtəələrini və ya göstərdiyi xidmətləri digər sahibkarın əmtəələrindən və ya göstərdiyi xidmətlərdən fərqləndirməkdən ibarətdir.

Göstərilənləri nəzərə alaraq Apellyasiya şurası hesab edir ki, "МАРИНКА" nişanı "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikası Qanununun 1-ci və 4-cü maddələrinin tələblərinə cavab verir.

Şərh edilənlərə əsasən, "Əmtəə nişanlarının qeydə alınması barədə iddia sənədinin verilməsi və ekspertizası Qaydaları"nın 29.6.1-ci, 29.6.2-ci, 29.6.3-cü, 29.6.4-cü, 29.9.1-ci, 29.9.2ci bəndlərini nəzərə alaraq "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikası Qanununun 1-ci, 4-cü maddələrini, 6-ci maddəsinin "a" və "b" bəndlərini, "Sənaye mülkiyyətinin mühafizəsi üzrə Paris Konvensiyasının" 6$^{quinquies}$ maddəsini rəhbər tutaraq Apellyasiya şurası

Qərara aldı:

1. "МАРИНКА" əmtəə nişanının 30-cu sinifin əmtəələri üzrə 1302877 saylı beynəlxalq qeydiyyata alınmasına dair ekspertizanın 27.11.2017-ci il tarixli rədd qərarına qarşı iddiaçının nümayəndəsi patent müvəkkili M.Y.Qurbanov tərəfindən verilmiş ərizə əsaslı hesab edilsin və təmin olunsun.
2. "МАРИНКА" əmtəə nişanının 30-cu sinifin əmtəələri üzrə 1302877 saylı beynəlxalq qeydiyyata alınmasına dair ekspertizanın 27.11.2017-ci il il tarixli rədd qərarı ləğv edilmiş sayılsın.
3. "МАРИНКА" əmtəə nişanının 30-cu sinifin əmtəələri üzrə 1302877 saylı beynəlxalq qeydiyyatı Azərbaycan Respublikası ərazisində qüvvədə saxlanılsın.
4. Qeyd olunanlara əsasən Beynəlxalq büroya müəyyən edilmiş qaydada məlumat göndərilsin.

Apellyasiya şurasının sədri: Z.T.Hacıyev

Üzvləri: N.F.Nəsibova

R.N.Hüseynəliyev